# *Rosmarinus officinalis* L. NÖVÜNDƏN ALINAN EFİR YAĞI VƏ TƏTBİQ SAHƏLƏRİ

**Xəyalə Əlibəyli[1]*, Tofiq Sadiqov[1], Elmin Əlibəyli[2]**

*[1]AR ETN Dendrologiya İnstitutu, Bakı*
*[2]Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı*
*xeyaleelibeyli@gmail.com*

Azərbaycanın bitki örtüyü qiymətli efiryağlı dərman bitkiləri ilə zəngindir. Efiryağlı bitkilər qədim zamanlardan bu günümüzə qədər sağlamlığın qorunması üçün istifadə edilir. Efir yağları yeganə təbii maddələrdir ki, onun tərkibində yüzlərlə kimyəvi komponent vardır. Efir yağları uzun illərdən bəri tibbdə, kosmetologiya sahəsində, aromaterapiyada, qida sənayesində istifadə edilən zərərsiz maddələrdir. *Rosmarinus officinalis* L. növündən alınan efir yağı çoxsahəli əhəmiyyətə malikdir.

Dərman rozmarini (*Rosmarinus officinalis* L.) botaniki xarakterinə görə həmişəyaşıl, sıx budaqlanan, hündürlüyü 1-1,5 m olan çoxillik kol bitkisidir. Az qulluq tələb edən, quraqlığa davamlı, torpağa az tələbkar bitkidir. Açıq sahələrdə 2 m-ə qədər uzana bilər. Yarpaqları iynə şəklindədir. Çiçəkləri açıq-bənövşəyi rəngli və ətirlidir. Meyvələri fındıqcadır. Yazdan başlayaraq payızın axırlarına kimi çiçəkləyir. Dalamazkimilər (*Lamiaceae* Lindl.) fəsiləsinə aid *Rosmarinus officinalis* L. növünün vətəni Aralıq dənizinin qərb sahilləridir. Azərbaycanın ərazisinə introduksiya edilən Dərman rozmarini (*Rosmarinus officinalis* L.) Abşeron yarımadasının quru subtropik iqlim şəraitinə uyğunlaşaraq park və bağların yaşıllaşdırılmasında dekorativ bitki kimi becərilir. Dərman rozmarini növünə aqrotexniki qulluq göstərildiyi zaman inkişafını normal keçirdiyi müəyyən edilmişdir.

Tədqiqat obyekti olaraq efiryağlı dərman bitkisi kimi mühüm əhəmiyyət kəsb edən *Rosmarinus officinalis* L. növü götürülmüşdür. Tədqiqatlar zamanı Dendrologiya İnstitutunun Abşeron rayon Saray qəsəbəsində yerləşən təcrübə sahəsindən *Rosmarinus officinalis* L. növündən nümunələr toplanmış və Sənaye əhəmiyyətli bitkilər laboratoriyasında standartlara uyğun şəkildə qurudulmuşdur. Efiryağlı dərman bitkisi kimi mühüm əhəmiyyət kəsb edən *Rosmarinus officinalis* L. növü Dendrologiya İnstitutunun bitki kolleksiyasında özünəməxsus yer tutur.

Tədqiqat işinin yerinə yetirilməsi üçün *Rosmarinus officinalis* L. növündən hidrodistillyasiya (Qinzberq) metodu ilə efir yağı alınmışdır. Alınan efir $\alpha$-xromotoqrafiyasında analiz edilmişdir.

*Rosmarinus officinalis* L. növünün cavan gövdə və yarpaqları efir yağları ilə zəngindir. Dərman rozmarinindən alınan efir yağı açıq-sarı rəngli olub, tünd iylidir. Rozmarin efir yağının tərkibində müxtəlif ətirli komponentlər vardır. Analizin nəticəsinə əsasən, növün efir yağının tərkibində $\alpha$-pinen, sabinen, β-pinen, mircen, carene-3, $\alpha$-terpinen, 1.8-cineol (evkaliptol), ocimen, terpinen, terpinolen, linaool, cariophyllene, terpinen-4-ol, $\alpha$-terpineol, kamfen, mirtenol, nerol, geraniol, mirtenilacetate, citronelly butyrate, $\alpha$-terpenilacetat, nerilacetat, 2-phenylethyltiglate maddələri aşkar edilmişdir. Araşdırmalar zamanı *Rosmarinus officinalis* L. növünün yarpaq və zoğlarında efir yağının miqdarının çiçəkləmə dövründə daha çox olduğu müəyyən edilmişdir. Saxlanılması şərtlərindən asılı olaraq, efir yağlarının saxlanma müddəti dəyişə bilər. Rozmarin bitkisindən alınan efir yağı qaranlıq və sərin otaqlarda saxlanılarsa, uzun müddət öz keyfiyyətini saxlayır. Dərman rozmarinindən alınan efir yağları tibbdə bir çox xəstəliklərin müalicəsində istifadə edilir. Həmçinin saç tökülməsinin qarşısını almaq məqsədilə rozmarin efir yağından istifadə edilir.

*Rosmarinus officinalis* L. alınan efir yağı iltihab əleyhinə, göbələk əleyhinə, ağrıkəsici, bakterisid təsirə malikdir. Kosmetologiyada rozmarin efir yağından kremlərin hazırlanmasında istifadə olunur. Dəridə günəş şüalarının yaratdığı problemlərin qarşısını alır, qırışların azalmasına kömək edir. Tərkibindəki faydalı elementlər sayəsində rozmarin dərini vitaminlərlə doyurmaq, dərini cavanlaşdırmaq, qırışların qarşısını almaq və epidermisdə metabolik prosesləri aktivləşdirmək qabiliyyətinə malikdir.

AR ETN Dendrologiya İnstitutunun baş direktoru vəzifəsini icra edən, biologiya üzrə fəlsəfə doktoru, dosent Minarə Həsənova digər müəlliflərlə birlikdə "Rozmarinin çoxaldılması üsulu"na (İ2023 0014) görə patent almışdır. İnstitutun Sənaye əhəmiyyətli bitkilər laboratoriyasının elmi əməkdaşları iki ilə yaxındır ki, rozmarin efir yağı tərkibli üz kreminin hazırlanması və tətbiqini həyata keçirirlər. 2024-cü ildə AR SN Respublika Gigiyena və Epidemiologiya Mərkəzindən gigiyenik sertifikat alınaraq kremin satışa buraxılması nəzərdə tutulub.

Aparılan elmi tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, Abşeron yarımadasında becərilən *Rosmarinus officinalis* L. növündən alınan efir yağının tibbdə, kosmetologiya sahəsində, parfümeriyada,

aromaterapiyada, qida sənayesində istifadə olunması böyük əhəmiyyət kəsb edir. Rozmarin efir yağlarının tərkibində olan bioloji aktiv maddələr insanlara həm müalicəvi, həm də psixoloji cəhətdən müsbət təsir göstərir. Belə ki, çoxsahəli əhəmiyyətə malik olan *Rosmarinus officinalis* L. növündən alınan efir yağının sənayenin müxtəlif sahələrində geniş tətbiqi məqsədəuyğundur.